# *Anar EYVAZOV:* "Ermənistan silahlı qüvvələrinin sərhədyanı ərazilərdə hücum və təxribatları davam edir"

**Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatları ilə əlaqədar sentyabrın 14-də Müdafiə Nazirliyində brifinq keçirilib.**

AZƏRTAC xəbər verir ki, brifinqdə Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəis müavini polkovnik-leytenant Anar Eyvazov media nümayəndələrinə əməliyyat vəziyyəti barədə məlumat verib.

Bildirilib ki, son dövrlər ərzində Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikasının Laçın, Gədəbəy, Daşkəsən və Zəngilan rayonları istiqamətlərində təxribatları, o cümlədən dövlət sərhədi yaxınlığında hücum təyinatlı texnikaları cəmləşdirməsi bu ölkənin niyyətini açıq şəkildə göstərirdi.

Müdafiə Nazirliyi tərəfindən ictimaiyyətə verilən məlumatlarda artıq bildirilirdi ki, Ermənistan silahlı qüvvələri Azərbaycan Ordusunun bölmələrini intensiv və sistematik qaydada atəşə məruz qoyur. Eyni zamanda Azərbaycan Respublikası sərhədləri boyunca bu təxribatların artması artıq Azərbaycan Ordusuna bir mesaj idi. Müdafiə nazirinin müvafiq göstərişinə uyğun olaraq Azərbaycan Ordusu daim hər bir təxribatın qarşısını almağa hazır vəziyyətdədir. Sentyabrın 12-si gecə saatlarından Ermənistan silahlı qüvvələrinin kəşfiyyat-diversiya qrupları dövlət sərhədinin Daşkəsən, Kəlbəcər, Laçın istiqamətlərində ərazi relyefi və dərə boşluqlarından istifadə edərək bölmələrimizin arxasına sızaraq ətrafı, eyni zamanda təminat yollarını minalamağa cəhd göstəriblər. Ordumuzun bölmələri tərəfindən onlar aşkarlanıb.

Qeyd olunub ki, ordumuzun bölmələri tərəfindən dərhal zəruri tədbirlər həyata keçirilib. Nəticədə qarşıdurma baş verib. Ermənistan silahlı qüvvələri Azərbaycanın Daşkəsən, Kəlbəcər, Laçın rayonları ərazisində yerləşən mövqelərini, eyni zamanda Kəlbəcər, Laçın rayonlarında infrastrukturun bərpa edilməsi məqsədilə cəlb olunmuş mülki işçiləri intensiv olaraq artilleriya qurğularından, minaatanlardan və müxtəlif çaplı silahlardan atəşə tutublar.

Sentyabrın 13-ü səhərə qədər davam edən qarşıdurma nəticəsində Silahlı Qüvvələrimizin bir qrup hərbi qulluqçusunun ölkəmizin ərazi bütövlüyü uğrunda böyük şücaət və qəhrəmanlıq göstərərək şəhid olduğunu deyən Anar Eyvazov Müdafiə Nazirliyinin rəhbərliyi adından şəhid olan hərbi qulluqçularımızın yaxınlarına və ailə üzvlərinə səbir, şəhidlərimizə Allahdan rəhmət diləyib.




Müdafiə Nazirliyinin rəsmisi bildirib ki, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı qeyd etdiyi kimi, şəhidlərimizin qanı yerdə qalmadı: "Toqquşma zamanı Azərbaycan Ordusunun bölmələri tərəfindən görülən adekvat cavab tədbirləri çərçivəsində Ermənistan silahlı qüvvələrinin atəş nöqtələri susdurulub, təxribata cəlb olunmuş canlı qüvvəsi, texnikası böyük itkilər verərək geri çəkilməyə məcbur edilib. Təəssüflər olsun ki, Ermənistan Azərbaycanın keçirdiyi "Qisas" əməliyyatı və xüsusilə Vətən müharibəsindən nəticə çıxarmayıb. Ermənistan silahlı qüvvələri sentyabrın 13-ü saat 09.00-da əldə edilən atəşkəs razılaşmasına əməl etməyərək yenə də təxribatlarını, çirkin əməllərini davam etdiriblər. Nəticədə sutka ərzində Ermənistanın Qarakilsə rayonunun Vağudi yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən ordumuzun Laçın rayonunun Əhmədli yaşayış məntəqəsi istiqamətində yerləşən mövqeləri ağır artilleriya, eyni zamanda minaatan və müxtəlif çaplı atıcı silahların zərbələrinə məruz qalıb.

Ötən gün və gecə saatlarında müxtəlif çaplı minaatan və artilleriya qurğularından atəş açan erməni silahlı qüvvələri, eyni zamanda Kəlbəcər və Laçın rayonlarında mülki, infrastruktur və bərpa-quruculuq işlərinə cəlb olunan mülki işçilərə təhdid yaradıb. Basarkeçər rayonunda yerləşən Ermənistan silahlı qüvvələrinə məxsus D-30 və D-20 toplarından Yuxarı Şorca, Aşağı Şorca və Zərkənd istiqamətlərindən Kəlbəcər rayonunun Zəylik, Yellicə və Yuxarı Ayrım yaşayış məntəqələri istiqamətində olan bölmələrimiz artilleriya zərbələrinə məruz qalıblar. Eyni zamanda Kəlbəcər, Laçın və Daşkəsən rayonları ərazisində yerləşən mövqelərimiz də D-30 və D-20 toplarına və 82 millimetrlik minaatanlardan da atəşə məruz qalıb. Bütün hallarda Azərbaycan Ordusunun bölmələri tərəfindən zəruri və adekvat cavab tədbirləri həyata keçirilib", - deyə rəis müavini diqqətə çatdırıb.

Qeyd edib ki, qarşı tərəf canlı qüvvə və texnika baxımından ciddi zərbə alıb: "Hazırda vəziyyət gərgin olaraq qalır. Əməliyyat şəraiti ordumuzun tam nəzarəti altındadır. Təəssüflə bildirirəm ki, bizim də itkilərimiz var. Bu barədə ictimaiyyətə əlavə məlumat veriləcək".

Ermənistan mətbuatında, sosial şəbəkələrində kütləvi şəkildə yalan məlumatlar, foto-video materiallar dərc olunduğunu söyləyən Anar Eyvazov ictimaiyyəti yalnız Müdafiə Nazirliyinin rəsmi məlumatlarına istinad etməyə və qarşı tərəfin dezinformasiyalarını tirajlamamağa çağırıb. Ermənistan tərəfindən müxtəlif dezinformasiyalarla Azərbaycan Ordusu tərəfindən guya mülki obyektlərə, yaşayış evlərinə, mülki şəxslərə qarşı atəş açılması barədə məlumatlar verilir. "Ermənistan informasiya məkanında müxtəlif xəbərlər yayılır. Azərbaycan Ordusu tərəfindən guya təcili tibb maşını vurulub, Rusiya Silahlı Qüvvələrinin obyekti hədəfə alınıb. Bunlar hamısı dezinformasiyalardır. Ermənistan bu cür məlumatları yaymaqla Azərbaycan-Ermənistan dövlət sərhədində törətdiyi genişmiqyaslı təxribatlara beynəlxalq don geyindirmək və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını da öz çirkin əməllərinə alət etmək məqsədi güdür", - deyə o əlavə edib.

Qeyd edib ki, Ermənistan silahlı qüvvələrinin təxribatının uğursuzluğundan təşvişə düşən bu ölkənin hərbi rəhbərliyi Azərbaycan-Ermənistan dövlət sərhədi boyu yerləşən bölmələrini, silah və döyüş texnikasını yaşayış məntəqələrindəki bina və mülki infrastruktur obyektlərinin yaxınlığında və Ermənistan ərazisinin dərinliklərində tərtiblənməsinə əmr verib.

Həmin məntəqələrdən Azərbaycan Ordusunun mövqelərini atəşə tutmaqla Ermənistan bu atəş nöqtələrini legitim hərbi hədəflərə çevirməyə və qəsdən hərbi əməliyyatların əhatə zonasını genişləndirməyə çalışır.

Nazirliyin rəsmisi bir daha bəyan edib ki, Azərbaycan Ordusunun bölmələri tərəfindən mülki obyektlər hədəfə alınmır və yüksək dəqiqlikli silah və vasitələrlə qarşı tərəfin yalnız legitim hərbi hədəfləri, atəş nöqtələri məhv edilir.

Azərbaycan.- 2022.- 15 sentyabr.- S.4.